2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 01 yanvar 2015-ci il tarixli 92 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 03 yanvar 2015-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 74 saylı Lənkəran kənd seçki dairəsi üzrə Kərgəlan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Cəfərov Rasim Əsgər oğlunun həmin seçki dairəsi dairə seçki komissiyasının 26 dekabr 2014-cü il tarixli 23/54 saylı qərarının ləğv edilməsi ilə bağlı 2015-ci il yanvarın 01-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 92 saylı müraciətini araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın tələblərinə uyğun olaraq araşdırılmışdır.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, mövcud şikayət 24 dekabr 2014-cü il tarixdə aidiyyət qaydaları tələbinin pozulması ilə MSK-ya daxill olduğundan, baxılması üçün aidiyyəti üzrə müvafiq seçki komissiyasına göndərilmiş, komissiya tərəfindən müraciətə baxılmış və 23/54 saylı 26 dekabr 2014-cü il tarixli qərarla əsassız olduğundan təmin edilməmişdir.

Araşdırma zamanı 74 saylı Lənkəran kənd seçki dairəsi dairə seçki komissiyası sədrinin, həmin seçki dairəsinin 21 və 22 saylı seçki məntəqəsi məntəqə seçki komissiyası üzvlərinin, həmçinin seçki məntəqələrində müşahidə aparmış müşahidəçilərin, bələdiyyə üzvlüyünə qeydə alınmış digər namizədlərin izahatlarına əsasən səsvermə günü hər hansı qanun pozuntusunun və ya saxtakarlığın edilməsi iddiası öz təsdiqini tapmamışdır.

Belə ki, müşahidəçilər Mirzəyev Sərraf Paşa oğlu, Muradov Müqabil İsrafil oğlu, Qəniyeva Həmidə Rzabala qızı, məntəqə seçki kiomissiyası üzvləri İbadov Çervon Əli oğlu, Məlikov Tofiq Gülmalı oğlu, Babayev Ədalət Feyzi oğlu, Ağasıyev Fazil Ağası oğlu, qeydə alınmış digər namizədlər Əsgərov Əflatun Dövlət oğlu, Səfərov Şahin Nizami oğlu, Nəsirova Həcər Fərhad qızı izahatlarında bildirmişlər ki, səsvermə prosesi seçki qanunvericiliyinin tələblərinə uyğun təşkil edilmiş və keçirilmişdir. Səslərin hesablanması başa çatdıqdan sonra səsvermənin nəticələrinə dair məntəqə seçki komissiyalarının protokolları qanunvericiliyə uyğun tərtib olunmuş, komissiya üzvləri tərəfindən imza edilmiş, protokolun bir nüsxəsi məlumat lövhəsindən asılmış, surətləri səsvermə otağında olan müşahidəçilərə və qeydə alınmış namizədlərə təqdim olunmuşdur.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara

baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən rəyə gəldim:

1. 74 saylı Lənkəran kənd seçki dairəsi üzrə Kərgəlan bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizəd Cəfərov Rasim Əsgər oğlunun həmin seçki dairəsi dairə seçki komissiyasının 26 dekabr 2014-cü il tarixli 23/54 saylı qərarının ləğv edilməsi ilə bağlı 2015-ci il yanvarın 01-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 92 saylı müraciəti əsassız olduğundan təmin edilməsin.

2. Dairə seçki komissiyasının qərarı dəyişdirilmədən saxlanılsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov